**ƏLİYEV HƏSƏN RƏFİ OĞLU**
**(1935)**
**Dilçi**

16 fevral 1935-ci ildə anadan olmuşdur. 1955-ci ildə ADU-nun Alman-Azər-baycan dilləri fakültə-sinə daxil olmuşdur. 1960-cı ildə həmin fakültənin alman-ingilis dilləri ixtisasını bitirmişdir. 1962-ci ildə BDU-da müəllim, 1974-cü ildə baş müəllim, 1982-ci ildə dosent vəzifəsində çalışmışdır. 1985-ci ildən 1988-ci ilədək Alman dili kafedrasının müdiri olmuşdur. 1972-ci ildə Türkmənistan Respublikası Aşqabad Univer-sitetində namizədlik, 1990-cı ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1987-ci ildə Alman dili kafedrasının professoru seçilmişdir. 1993-cü ildə Əməkdar elm xadimi adına layiq görülmüşdür. 2 monoqrafiya, 6 metodik vəsait, 125-dək elmi məqalənin müəlllifidir. 2 nəfər elmlər namizədi yetişdir-mişdir.